# 2018-ci il, birinci rüb: Qəbələdə bütün sahələrdə uğurlu inkişaf var

## Rayon icra hakimiyyətində geniş şura iclası keçirilmişdir

***Aprelin 18-də Qəbələ Rayon İcra Hakimiyyətində 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair şura iclası keçirilmişdir. Tədbirdə şura üzvləri, icra nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat rəhbərləri və sahibkarlar iştirak etmişlər. İclasda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat məruzəsi dinlənilmişdir.***



Səbuhi Abdullayev məruzəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyilə Nazirlər Kabinetinin aprelin 9-da keçirilən cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının qarşıya qoyduğu mühüm vəzifələrdən danışmış, ölkədə iqtisadi islahatların və ixrac potensialının gücləndirilməsi, yerli istehsalın artırılması kimi istiqamətlər üzrə tövsiyələrini, həmçinin investisiyaların cəlb edilməsi prosesində mühüm addımların atılması barədə fikirlərini diqqətə çatdırmışdır.

Səbuhi Abdullayev bu ilin ilk üç ayı ərzində ölkədə geniş vüsət alan sosial-iqtisadi inkişafın, aparılan abadlıq-quruculuq işlərinin Qəbələdə də uğurla davam etməsindən, rayonun sosial-iqtisadi və mədəni-ictimai həyatında əldə olunan nəticələrdən, həyata keçirilən infrastruktur layihələrindən geniş söhbət açmışdır.

RİH başçı hesabat dövründə sosial problemlərin həllinə dair mühüm tədbirlərin görüldüyünü, təhsil, səhiyyə və digər sosial sahələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərin davam etdirildiyini qeyd etmişdir.



**(Məruzə qəzetin bu nömrəsində çap edilib).**

Hesabat məruzəsi ətrafında rayon su-kanal idarəsinin rəisi Tamerlan Həsənov və Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin baş mühəndisi Nurməmməd Naibov çıxış etmişlər.

İclasda sosial-iqtisadi inkişaf sahəsindəki mövcud vəziyyət ətrafllı müzakirə olunaraq qarşıda duran vəzifələr müəyyənləşdirilmiş, mövzu ilə əlaqədar qərar qəbul olunmuşdur.

Şura iclasını rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

**"Qəbələ"**

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları, xanımlar və cənablar!**

Prezident cənab İlham Əliyevin sədrliyi ilə aprelin 9-da Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasda cənab İlham Əliyev bu ilin birinci rübünün uğurla başladığını və ölkəmizin hərtərəfli inkişaf etdiyini, bütün sahələrdə dinamik inkişafın təmin edildiyini bildirmiş, iqtisadi göstəricilərimizin müsbət olduğunu vurğulamışdır.

Dövlət başçısı iclasdakı giriş nitqində qeyd etmişdir ki, birinci rübdə ölkə iqtisadiyyatına 3.5 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun böyük əksəriyyəti xarici sərmayələrdir. Ötən dövrdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artmışdır. Qeyri-neft sektorunda artım 3 faiz olmuşdur ki, bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir.

Ölkəmizdə son illər aparılan sənayeləşmə siyasətinin nəticəsində ilin arxada qalan 3 ayında sənaye istehsalında 2 faiz, qeyri-neft sənayesində təxminən 10 faiz, kənd təsərrüfatında 4,2 faiz, bitkiçilik sahəsində isə 50 faizdən çox artım olmuşdur.

Cənab Prezident ölkəmizin valyuta ehtiyyatlarının 2,2 milyard dollar artdığını və hazırda 44,2 milyard dollara çatdığını bildirmişdir.

2018-ci ilin əvvəlindən, keçən 3 ay müddətində xarici ticarət dövriyyəsi 31 faiz çoxalmışdır. Ölkəmizin xaricə ixrac etdiyi mallarda artım 24 faiz olmuşdur. Burada xüsusi yer tutan qeyri-neft mallarının ixracında artım 37 faiz təşkil edir.

Cənab İlham Əliyev iclasdakı nitqində həmişə olduğu kimi bu ilin birinci rübündə də yeni iş yerlərinin açılmasına xüsusi diqqət yetirildiyini vurğulamış, ölkə üzrə 34 min iş yeri yaradıldığını, onların 31 mininin daimi iş yerləri olduğunu, beləliklə, 2004-cü ildən bu günə qədər təxminən 1 milyon 500 min yeni daimi iş yeri açıldığını diqqətə çatdırmışdır.

Ölkə başçısı respublikamızda birinci rübdə infilyasiyanın həddi cəmi 4 faiz olduğunu, əhalinin gəlirlərinin isə təxminən 10 faiz artdığını qeyd etmişdir.

Sosial məsələlərin həlli sahəsində ölkədə böyük işlər görüldüyünü söyləyən cənab İlham Əliyev birinci rübdə büdcədən maliyyələşən bütün təşkilatlarda maaşların və pensiyaların qaldırıldığını bildirmişdir.

Həmçinin giriş nitqində iqtisadi sahədə əldə edilmiş uğurların infrastruktur layihələrinin də müvəffəqiyyətlə davam edilməsinə imkan yaratdığı qeyd olunmuş, təsdiq edilmiş proqram və planlara uyğun olaraq yeni xəstəxanaların, məktəblərin, olimpiya-idman qurğularının, digər sosial infrastruktur layihələrinin həyata keçirilməsinin davam etdirildiyi vurğulanmışdır.

Dövlətimizin başçısı Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağında bu ilin ötən üç ayında ölkəmizdə bir neçə mötəbər tədbirlərin keçirildiyini, bu tədbirlər içərisində VI Bakı Qlobal Forumunun xüsusilə fərqləndiyini, forumda 50-dən çox ölkədən 47 fəaliyyətdə olan və sabiq dövlət başçılarının iştirak etdiyini demişdir.

Diqqətə çatdırılmışdır ki, ilin birinci rübündə ölkəmizə 7 dövlət və hökümət başçısı səfər etmişdir.

Eləcə də aprel ayında ölkəmizdə Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilmişdir. Konfransda 120 ölkədən nümayəndə iştirak etmişdir. Gələn ildən başlayaraq Azərbaycan Qoşulmama hərəkatına sədrlik edəcəkdir ki, bu da ölkəmizə göstərilən böyük hörmətin və inamın təzahürüdür.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci ilin ötən dövrü ölkəmiz üçün bütövlükdə siyasi baxımdan əlamətdar olmuşdur.

Belə ki, aprelin 11-də müstəqil Azərbaycanımızın müasir tarixində növbəti böyük siyasi hadisə olan Prezident seçkiləri keçirilmişdir.

Yüksək demokratik şəraitdə keçirilən seçkilərdə müdrik xalqımız növbəti dəfə Heydər Əliyev siyasi kursuna, inkişafa, tərəqqiyə, sabitliyə, ölkəmizin daha firəvan gələcəyinə səs vermişdir. Bizim bütün nailiyyətlərimizin səbəbkarı, bütün xalqımızın sevimlisinə çevrilmiş möhtərəm cənab İlham Əliyev 86,2 faiz səs çoxluğu ilə növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bu münasibətlə mən Sizin hər birinizi ürəkdən təbrik edirəm.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci ilin birinci rübü ölkəmizdə olduğu kimi, Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaddaqalan olmuşdur.

Belə ki, birinci rüb ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 40.321,0 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı rayon üzrə 7.169 min manat, yaxud 21,6 faiz artmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 1.480 min manat, yaxud 17,3 faiz, kənd təsərrüfatında 325 min manat, yaxud 3,2 faiz, tikintidə 4.551,0 min manat, yaxud 92,6 faiz, nəqliyyatda 42,0 min manat, yaxud 3,9 faiz, rabitədə 26,0 min manat, yaxud 10,1 faiz, ticarətdə 745,0 min manat, yaxud 9,1 faiz, artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 381 manat təşkil etmişdir.

Rüb ərzində sənaye müəssisələrində çalışan 1.280 nəfər işçinin orta aylıq nominal əmək haqqı 388 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 9.813,0 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 9.463,0 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından 1 aprel 2018-ci ilədək 15.108-i daimi olmaqla, 16.907 yeni iş yeri açılmışdır. Rüb ərzində açılmış yeni iş yerlərinin sayı 201 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimidir.

Qəbələ Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 825 nəfərdən 344 nəfəri müvafiq işlə təmin edilmiş, o cümlədən rayon mənzil istismar və kommunal müəssisələr kombinatında 60 nəfər, Qəbələ Təmir

**(Ardı 3-cü səhifədə).**